# "Səslən tarım..."

Kitab da bir ömürdür, yaşanmış, həm də arxada qalan illərin könül dəftəri kimi doğma, əziz və məhrəm... Miniatür Kitab Muzeyinin yenicə çap etdiyi "Ramiz Quliyev: "Səslən, tarım" kitabı belələrindən biridir.

Kitab "...Azərbaycanı mizrabının gücü ilə dünyaya tanıdan oğul, səni bağrıma basıb gözlərindən hörmətlə öpürəm" - deyən Məhəmmədhüseyn Şəhriyarın aşağıdakı fikirləri ilə açılır: "Tarix boyu yetişən min bir çeşidli qılınc, qəhrəman, şücaət, qələm, söz və saz ustaları kimi, ustad Ramiz, sənin adını tarixdə görürəm. Sənin kimi bir övlad yetişdirən ana bəxtiyardır. Səni yetirən vətən xoşbəxtdir. Tarının sədaları həmişə qulağımda səslənir".




1987-ci ildə deyilən bu fikirlər miniatür kitabın, bir növ həm proloqu, həm də epiloqudur. Kitab elmi auditoriyanın və ictimaiyyətin tanınmış simalarının bir-birindən dəyərli fikirləri ilə də zəngindir.

Azərbaycan və rus dillərində nəşr edilən miniatür kitabda ustad sənətkarın tarı ilə dünya səhnələrində keçirdiyi günlərin müəyyən anlarını əks etdirən foto-şəkillər də yer alıb. Miniatür kitabın tələblərinə uyğun olaraq, fikirlərin yığcamlığı burada da onun bədii və texniki tərtibatının əsasını təşkil edib. Xalq artisti, Dövlət mükafatı laureatı, professor Ramiz Quliyev sənətinə dünyanın məşhur musiqişünas alimlərindən əlcəzairli Əl Səid Ciddinin, fransız Jan Durinqin, amerikalı İzaliy Zemtskovskinin, Almaniya Ənənəvi Musiqi Şurasının prezidenti E. Ştokmanın, eləcə də ölkəmizin korifey sənətkarlarından bir çoxlarının səmimi və dəyərli ürək sözləri də kitabda öz əksini tapıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***